# Ermənistan USAID-in dəstəyindən məhrum oldu

## İrəvan artıq beynəlxalq yardımlarla problemlərini ört-basdır edə bilməyəcək

**"ABŞ Prezident Administrasiyasının USAID-in fəaliyyətini dayandırması haqqında qərarı, təkcə bu təşkilatın fəaliyyət dairəsinin məhdudlaşdırılması deyil, eyni zamanda Ermənistanın uzun illərdir beynəlxalq yardımlardan sui-istifadə etməsinin nəticəsi kimi qiymətləndirilməlidir. USAID-in Ermənistana ayırdığı vəsaitlərin əsas məqsədi guya demokratiyanın inkişafı, iqtisadi islahatların dəstəklənməsi və insan hüquqlarının qorunması olsa da, əslində, bu pulların böyük hissəsi başqa məqsədlərə yönləndirilmişdi".**



Bu sözləri "Azərbaycan" qəzetinə Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva deyib. O bildirib ki, Ermənistan bu yardımlardan öz separatçı siyasətini dəstəkləmək, Azərbaycan ərazilərində qanunsuz fəaliyyətləri maliyyələşdirmək və beynəlxalq ictimaiyyəti aldatmaq üçün istifadə edib. USAID-in Ermənistandakı fəaliyyəti, əslində, bir çox hallarda regionda sabitliyi pozan amillərdən biri olub. ABŞ-nin maliyyə yardımları Ermənistanın daxili problemlərini həll etmək əvəzinə, onu daha da cəsarətləndirərək regionda destruktiv rol oynamağa təşviq edib. Ermənistan bu yardımlardan yalnız iqtisadi və sosial layihələr üçün deyil, həm də öz hərbi xərclərini dolayısı ilə dəstəkləmək üçün istifadə edib. Vaxtilə işğal altında olan ərazilərdə aparılan qanunsuz fəaliyyətlər, o cümlədən qeyri-qanuni məskunlaşmalar və təbii resursların talanması, məhz beynəlxalq yardımların, həmçinin USAID-in dolayısı ilə təmin etdiyi maliyyə resursları hesabına həyata keçirilib. "Bundan əlavə, USAID-in fəaliyyəti vasitəsilə Ermənistan özündə saxta demokratik imic formalaşdırmağa çalışıb. Beynəlxalq təşkilatlar və Qərb dövlətləri qarşısında demokratik dəyərlərə sadiq olduğunu göstərmək üçün müxtəlif layihələr həyata keçirilsə də, əslində, Ermənistan cəmiyyətində köklü problemlər həll olunmamış qalıb. Korrupsiya, siyasi təqiblər və insan hüquqlarının pozulması halları davam edib, USAID-in bu sahədə göstərdiyi "dəstək" isə yalnız görüntü xarakteri daşıyıb. Ermənistan hökuməti beynəlxalq yardımlardan istifadə edərək daxili siyasi rəqiblərini susdurmaq və cəmiyyət üzərində nəzarəti gücləndirmək üçün yeni mexanizmlər qurub", - deyə ekspert əlavə edib.

K.Əliyeva qeyd edib ki, USAID-in fəaliyyətinin dayandırılması Ermənistan üçün ciddi bir siqnaldır. Bu, ilk növbədə, Ermənistanın beynəlxalq etibarını itirdiyini göstərir. Ermənistan uzun illər boyu beynəlxalq yardımlardan faydalanaraq öz məsuliyyətsiz siyasətini davam etdirib, regionda sülh və sabitliyə təhlükə yaradıb. İndi isə ABŞ və digər Qərb dövlətləri bu reallığı qəbul edərək, Ermənistanın destruktiv fəaliyyətlərini dolayısı ilə də olsa, maliyyələşdirməyi dayandırır.

Professor bildirib ki, Azərbaycan bu addımı müsbət qiymətləndirir, çünki USAID kimi beynəlxalq təşkilatların Ermənistana göstərdiyi dəstək, faktiki olaraq, regionda ədalətsiz bir vəziyyətin davam etməsinə səbəb olub: "İndi isə Ermənistan bu yardımlardan məhrum olaraq öz problemlərinin həllində tək qalacaq. Bu vəziyyət Ermənistanı daha məsuliyyətli siyasət aparmağa məcbur edəcək, bəlkə də regionda sülhə və əməkdaşlığa real addımlar atmasına səbəb olacaq".

Ekspertin sözlərinə görə, USAID-in fəaliyyətinin dayandırılması, bir tərəfdən Ermənistanın uzun illərdir apardığı məsuliyyətsiz siyasətin ifşasıdır, digər tərəfdən isə regionda ədalətli və balanslı yanaşmanın formalaşmasına doğru atılmış addımdır. Ermənistan artıq beynəlxalq yardımlarla öz problemlərini ört-basdır edə bilməyəcək və bu, onun üçün ciddi iqtisadi və siyasi çətinliklər yaradacaq.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 11 fevral (№ 30).- S.5.